# Qusar: rayonun iqtisadi xəritəsində yeniliklər





**Bu gün böyük turizm məkanı olan Qusarda, demək olar ki, hər yerdə əsaslı yenidənqurma işləri görülür. Dağlara, düzlərə yollar çəkilir, körpülər salınır. Elektrik sistemi təzələnir. Yaşayış məntəqələri qazlaşdırılır. Yeni-yeni müəssisələr, sosial obyektlər işə salınır. Şəhər, kənd və qəsəbələrdə abadlıq-quruculuq işləri gedir. Rayonda infrastrukturun yaradılması ilə bərabər, turizm də sürətlə inkişaf edir. İstehsal sahələri genişlənir. Məhsul istehsalı artır. Ötən il təbiətin yaratdığı çətinliklərə baxmayaraq, rayonda kənd təsərrüfatı artan templə inkişaf etmişdir. Bir sözlə, rayonun iqtisadi xəritəsində yeniliklər tez-tez baş verir. Regionların sosial-iqtisadi inkişafına dair növbəti Dövlət Proqramı rayonda uğurla icra olunur.**

Bütün bunlar rayon icra hakimiyyəti başçısının 2019-cu ildə rayonun sosial-iqtisadi inkişafının yekunlarına və cari ildə qarşıda duran vəzifələrə dair hesabat məruzəsində geniş əksini tapmışdır. **RİH başçısı Şair Alxasovun** məruzəsində qeyd olunmuşdur ki, hesabat dövründə Dövlət Proqramında Qusar rayonu üzrə nəzərdə tutulan tədbirlərin icrası istiqamətində hesabat dövründə müəyyən işlər görülmüşdür. Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə Dövlət sərhədində Samur çayı üzərində yeni, uzunluğu 325,3 metr olan körpünün tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Bakı-Quba-Rusiya Federasiyası ilə Dövlət Sərhədi avtomobil yolunun Qusar rayonu ərazisindən keçən 16 kilometrlik hissəsində tikintisi işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2019-cu il tarixli sərəncamına əsasən Cibir-Mucuq-Həzrə-Sudur yolunun tikintisinə başlanılmış, Cibir kəndinə kimi olan 4 km-lik, Mucuq kəndinə kimi olan 6 km-lik hissələrində yol əsasının genişləndirilməsi və tikintisi başa çatdırılmış, yola ikiqat asfalt örtük çəkilmişdir. Ukur, Böyük Muruq və Düztahir kəndləri ərazisindən keçən hissədə yol əsasının genişləndirilməsi və yol yatağının tikintisi işləri görülmüş, 19 yerdə müxtəlif diametrli su ötürücü borular qoyulmuşdur.

Dövlət Proqramında növbəti 5 ildə rayonda 21 məktəb binasının tikintisi və 4 məktəb binasının əsaslı təmiri nəzərdə tutulmuşdur. Hesabat dövründə Ləcət, Yeni Həyat, Zindanmuruqqışlaq, Cağar, Yasaboba və Ləzə kəndlərində yeni modul tipli məktəb binaları quraşdırılıb istifadəyə verilmiş, Quxuroba kənd tam orta məktəb binasının əsaslı təmirinə başlanılmışdır.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərdən biri də əhalinin elektrik enerjisi ilə təminatı səviyyəsinin yüksəldilməsi üçün elektrik şəbəkəsinin yenidən qurulması ilə bağlıdır. Qusar şəhərində, Samur qəsəbəsində, Ləyərqışlaq, Zuxul və İmamqulukənd kəndlərində 10 və 0,4 kilovoltluq paylayıcı şəbəkələrin yenidən qurulması işləri həyata keçirilmiş, Qusar şəhərində Qusar-Xudat yolunun sol tərəfində yeni salınmış yaşayış massivində HEVX-nin kabel xətlərlə əvəz edilməsi üçün 129 ədəd yeni dayaq quraşdırılmış, 890 metr kabel xətti çəkilmiş və hazırda işlər davam etdirilir.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması məqsədi ilə şəhərin Yeni yaşayış massivində və küçələrində 2292 metr, 15 kənddə ümumilikdə 8573 metr müxtəlif diametrli qaz xətləri çəkilmiş, 471 ədəd qaz sayğacı yeniləri ilə əvəz edilmiş və digər işlər görülmüşdür. Cari ildə 3 kəndin qazlaşdırılması həyata keçiriləcəkdir.

2019-cu ildə rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində də müəyyən tədbirlər davam etdirilmiş, peyk avadanlığı üzərindən işləyən Nəcəfkənd və Yuxarı Qələnxur kənd ATS-ləri FO kabel xəttinə qoşularaq elektronlaşdırılmış, Aşağı İmamqulukənddə yeni EATS quraşdırılmışdır. Şəhər və kənd yerlərində ümumilikdə 32,4 km FO kabel xətləri çəkilmiş, istismara yararsız olan 287 km digər kabel xətləri yeniləri ilə əvəz edilmiş, 162 ədəd dirək təmir edilmiş, 201 ədəd yeni dirək quraşdırılmış, 1693 port geniş zolaqlı internet xidmətinə qoşulmuşdur. Qusar şəhərində 111 ədəd, kəndlərdə 492 ədəd yeni telefon çəkilmişdir.

Dövlət Proqramına uyğun rayonun yaşayış məntəqələrinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür. Samur qəsəbəsini içməli su ilə təmin edən, illər öncə tam yararsız vəziyyətə düşmüş magistral su xətti diametri 225 millimetr, uzunluğu 10 km olan polietilen borulardan çəkilmiş yeni magistral su xətti ilə əvəz edilmişdir. Bununla belə, yanvar ayında istifadəyə verilmiş su xəttində 5 ay keçəndən sonra Samurçayın yatağından keçən hissədə yenidən problem yaranmış və problemin aradan qaldırılması üçün xəttin 48 metrlik hissəsi dəyişdirilmişdir. Hazırda qəsəbəyə içməli suyun verilməsi tam bərpa olunmuşdur. Bununla yanaşı, qəsəbədaxili paylayıcı şəbəkə tam yararsız vəziyyətdə olmaqla, magistral xətlə nəql olunan suyun abonentlərə çatdırılmasını təmin edə bilmir. Ona görə də ötən ildə Samur qəsəbəsinin daxili paylayıcı şəbəkəsinin, Köhnə Xudat və Qayakənd kəndlərinin içməli su ilə təmin edilməsi üçün magistral və kənddaxili su xətlərin çəkilməsindən ötrü layihələndirmə işləri görülmüş və Qayakənd kəndində 6750 metr müxtəlif diametrli su xətləri çəkilmiş, 137 evə su birləşmələri qoyulmuşdur.

2019-cu ildə rayonda kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına, habelə buğda əkininə görə 9276 nəfər istehsalçıya 2 milyon 352,6 min manat,1351 sahibkara 1678 baş cins buzova görə 167,8 min manat, arıçılıqla məşğul olan sahibkarlara 155,4 min manat, I və II reproduksiyalı buğda, arpa və kartof toxumunu istehsal edən 13 sahibkara 425,3 min manat subsidiya ödənilmişdir.

Ötən dövr ərzində rayonda 216,2 hektar alma, 26,7 hektar armud, 1,6 hektar heyva, 60,4 hektar şaftalı, 4,8 hektar ərik, 47,1 hektar gilas, 20,4 hektar gavalı, 1,6 hektar xurma və 60,8 hektar fındıq olmaqla cəmi 439,6 hektar meyvə bağları əkilmişdir. “Soyuzaqrokontrakt” MMC-nin nəzdində 2-ci, gücü saatda 10 ton olan çeşidləmə və qablaşdırma qurğusu quraşdırılmışdır. “Metak” MMC-nin nəzdində yaradılmış və fəaliyyət göstərən tara istehsalı müəssisəsi müxtəlif ölçüdə və növdə plastik tara istehsalını həyata keçirir. Müəssisənin sutkalıq istehsal gücü 10 min ədəd tara istehsalı təşkil edir.

Ötən ildə Sosial-İqtisadi İnkişaf Fəaliyyəti layihələri (SEDA) çərçivəsində Gədəzeyxur kəndində Yem Emalı Məntəqəsi tikilməklə avadanlıqlarla təmin edilərək istifadəyə verilmiş, Çiləgir kəndinin suvarma suyu ilə təminatındakı problemin həlli məqsədilə Cağar-Cibir kanalından 780 metr boru xətti çəkilmiş və problem aradan qaldırılmış, Balaqusar kəndində Meyvəqurutma məntəqəsinin qurulması üçün müəyyən işlər görülmüşdür. Rayonda taxıl istehsalçılarına göstərilən xidmətlərin səviyyəsinin artırılması, məhsulun itkisiz və vaxtında yığılmasının təmin edilməsi üçün “Aqrolizinq” ASC-nin Qusar filialına əlavə 3 ədəd kombayn və 1 ədəd kənd təsərrüfatı aqreqatı gətirilmişdir. Əkin sahələrinin məhsuldarlığının artırılması məqsədi ilə mineral gübrələrə olan tələbatın ödənilməsi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq güzəştli qiymətlərlə sahibkarlara 4701,7 ton mineral gübrələr və 5726 litr pestisidlər verilmişdir. Payız aylarında mineral gübrələrə olan tələbatın ödənilməsi üçün kəndlərdə gübrələrin səyyar satışı təşkil olunmuşdur. Əkin sahələrinin mövsüm ərzində suvarma suyuna olan tələbatının vaxtında ödənilməsi məqsədilə arx və kanallar 753 min kubmetr lil və çöküntülərdən təmizlənmiş, suvarma sistemləri üzərindəki 49 hidrotexniki qurğu təmir edilmişdir. Daşqın və selə qarşı mübarizə məqsədi ilə Samurçay və Qusarçay çaylarında 841 min $m^3$ çay məcralarının təmizlənməsi işləri görülmüş, beton örtüklü kanallarda 5 km-ə qədər cari təmir işləri görülmüş, Samurçay çayında 120 metr, Qusarçay çayında 225 metr uzunluğunda daş-beton bəndlər tikilmişdir. Ötən ildə suvarma və içməli su probleminin həlli məqsədi ilə daha 5 kənddə 5 ədəd artezian quyusunun qazılmasına başlanılmış, bunlardan, 2 kənddə işlər başa çatdırılmış, 3 kənddə qazıntı işləri davam etdirilir.

2019-cu ildə rayonda cəmi biçilmiş 18444 hektar buğda sahəsindən 51309 ton, cəmi biçilmiş 7691 hektar arpa sahəsindən 21510 ton məhsul istehsal edilmiş və hər hektardan orta məhsuldarlıq buğda məhsulu üzrə 27,8 sentner, arpa məhsulu üzrə 28,0 sentner təşkil etmişdir. Orta məhsuldarlıq ötən ildəkindən müvafiq olaraq 6,0 və 6,1 sentner çox olmuşdur.

Ötən ildə rayonda həmçinin 37801,3 ton meyvə, 30762,7 ton kartof, 22142 ton tərəvəz, 536,4 ton qarğıdalı, 291,8 ton lobya, 60,3 ton noxud və mərci yığılmışdır. Ümumilikdə 2018-ci illə müqayisədə 2019-cu ildə əkin sahələrindən 22675 ton, meyvə bağlarından 3336 ton çox məhsul yığılmışdır. 01 yanvar tarixinə təsərrüfatlarda 2020-ci ilin məhsulu üçün 25968 hektar sahədə şum sürülmüş, 24428 hektar sahədə səpin aparılmışdır.

Ötən illə müqayisədə rayonun təsərrüfatlarında saxlanılan iribuynuzlu mal-qaranın sayı 0,8 faiz, xırdabuynuzluların sayı 0,9 faiz artmışdır. İl ərzində 5643 ton ət, 28914 ton süd, 231 ton yun və 12 milyon 539 min ədəd yumurta istehsal edilmişdir.

2019-cu ildə özünüməşğulluq proqramına 80 aztəminatlı ailə cəlb olunmuşdur ki, onlardan 63-ü təlim kurslarını bitirmiş, 59 ailənin kiçik biznes layihələri müsbət qiymətləndirilmişdir. Onlardan 43 ailəyə 86 baş iribuynuzlu, 8 ailəyə 168 baş xırdabuynuzlu heyvan verilmiş, eyni zamanda 2018-ci ildən qalan 7 ailəyə aktivlər verilmiş, qalan ailələrə lazım olan aktivlərin verilməsi prosesi cari ildə davam etdiriləcəkdir.

2019-cu ildə 857 ailənin 3785 nəfər ailə üzvünə ünvanlı sosial yardımı təyin olunmuş və il ərzində 1192 ailəyə 2431,6 min manat ünvanlı sosial yardımı ödənilmişdir. 21 sosial xidmət işçisi tərəfindən 148 tənha və kimsəsiz vətəndaşa xidmət göstərilmiş, 36 nəfərə sanatoriyalara göndəriş verilmişdir.

Ötən il rayonun şəhər, kənd və qəsəbələrində xeyli abadlıq, tikinti-təmir işləri də həyata keçirilmişdir.

Tarixi abidə olan Hil kənd məscidinin əsaslı təmiri işləri görülmüş, şəhərin Heydər Əliyev prospektində 850 kvadratmetr sahədə yaşıllıq salınaraq abadlıq işləri görülmüş, Piroğlanov küçəsinə 6000 kvadratmetr asfalt örtük çəkilmişdir, Qayakənd kəndi körpüsünün çıxışında sahilqoruyucu bəndin tikintisinə başlanılmış və körpüdə bərkitmə işləri görülmüşdür.

Yağış sularının ötürülməsi və şəhər ərazisindən kənarlaşdırılması üçün Qusar-Avaran yolunun başlanğıcından H.Aslanov küçəsinə kimi 160 metr uzunluğunda beton örtüklü arx çəkilmiş və suların H.Aslanov küçəsində ötən illərdə yeraltı çəkilmiş 330 metr uzunluğunda, diametri 350 mm olan boru xətti vasitəsi ilə H.Əliyev prospektinə və mövcud arxlar vasitəsi ilə E.İbrahimova küçəsinə və oradan da çaya kimi keçən ildə tikilən diametri 700 mm, uzunluğu 350 metr olan yeraltı boru xətti ilə Qusarçaya axıdılması sisteminin qurulması başa çatdırılmışdır.

Ötən il geniş ağacəkmə kampaniyası həyata keçirilmişdir. Qusar şəhərində 5239 ədəd, kənd yollarının kənarlarında 5667 ədəd olmaqla cəmi 10906 ədəd müxtəlif növ ağac və bəzək kolları əkilmişdir. Azərbaycanın böyük mütəfəkkiri və şairi İmadəddin Nəsiminin 650 illik yubileyi tədbiri ilə bağlı bir gündə 6 min ədəd ağac əkilmişdir.

2019-cu il səhiyyə sistemi üçün ciddi islahatlar il olmuşdur. Respublikamızda İcbari Tibbi Sığortanın tətbiqi ilə əlaqədar bir sıra fərman və qanunlar qəbul olunmuşdur. 2020-ci ilin yanvarın 1-dən respublikamızda səhiyyənin İcbari Tibbi Sığortaya keçməsi ilə əlaqədar “Qusar Rayon Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi tərəfindən 2019-cu ilin mart ayından başlayaraq yüksək səviyyədə hazırlıq işləri aparılmışdır.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**